UOT 94; UOT 327

KƏMALƏ ƏFƏNDİYEVA

AMEA-nın Akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun doktorantı
ORCID iD: 0000-0002-3789-2706
kamalaxudaverdi99@gmail.com

ERMƏNİSTAN VƏ QAZAXISTAN ARASINDA SİYASİ-DİPLOMATİK ƏLAQƏLƏRİN İNKİŞAF DİNAMİKASI (1991–2025)

DOI: https://doi.org/10.36719/2708-065X/111/238-242

Məqalədə 1991–2025-ci illərdə Ermənistan və Qazaxıstan arasında siyasi-diplomatik əlaqələrin formalaşması və inkişaf mərhələləri araşdırılır. SSRİ-nin dağılmasından sonra diplomatik münasibətlərin qurulması, səfirliklərin açılması və 1999-cu ildə imzalanan "Dostluq və Əməkdaşlıq haqqında Müqavilə" kimi sənədlər iki ölkə arasındakı münasibətlərin əsasını təşkil etmişdir. Məqalədə həmçinin Ermənistan və Qazaxıstanın Avrasiya İqtisadi İttifaqı və MDB çərçivəsində əməkdaşlığı, 2024-cü ildə Ermənistanın Aİİ-yə sədrlik fəaliyyəti və KTMT-dən uzaqlaşma qərarının təsirləri təhlil olunur. 2025-ci ildə iqtisadi və nəqliyyat əlaqələrinin dərinləşməsi, hökumətlərarası komissiya, tranzit marşrutlarının bərpası və mədəni əməkdaşlığın güclənməsi xüsusi vurğulanır. Beləliklə, məqalə Ermənistan-Qazaxıstan münasibətlərinin siyasi və iqtisadi istiqamətlərdə praqmatik əməkdaşlıq səviyyəsinə yüksəldiyini göstərir.

Açar sözlər: Ermənistan, Qazaxıstan, diplomatik münasibətlər, siyasi əməkdaşlıq, iqtisadi inteqrasiya, nəqliyyat-logistika, regional diplomatiya, postsovet məkanı.

Giriş. XX əsrin sonlarında Sovet İttifaqının dağılması nəticəsində formalaşan yeni geosiyasi mühitdə Ermənistan və Qazaxıstan kimi müstəqil dövlətlər beynəlxalq arenada öz xarici siyasət kurslarını müəyyənləşdirməyə başladılar. Bu prosesdə qarşılıqlı diplomatik əlaqələrin qurulması həm siyasi müstəqilliyin təsdiqi, həm də regional sabitliyin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. 1992-ci ildə diplomatik münasibətlərin yaradılması iki ölkə arasında siyasi dialoqun əsasını qoydu, sonrakı illərdə isə iqtisadi, humanitar və təhlükəsizlik sahələrində əməkdaşlıq istiqamətləri ilə zənginləşdi. Ermənistan və Qazaxıstan münasibətləri Avrasiya məkanında formalaşan yeni inteqrasiya proseslərinin bir parçası olaraq, MDB, Avrasiya İqtisadi İttifaqı və digər çoxtərəfli platformalarda qarşılıqlı maraqlara əsaslanan strateji tərəfdaşlıq modelinə çevrildi.

Ermənistan və Qazaxıstan arasında siyasi-diplomatik münasibətlər. Ermənistan və Qazaxıstan arasında diplomatik münasibətlər 27 avqust 1992-ci ildə, hər iki ölkənin müstəqilliyini əldə etməsindən qısa müddət sonra qurulmuşdur. Bu addım postsovet məkanında yeni beynəlxalq münasibətlər sisteminin formalaşdığı bir dövrdə atılmış və iki dövlətin suverenliklərinin qarşılıqlı tanınmasının rəsmi ifadəsinə çevrilmişdir [11]. Diplomatik əlaqələrin qurulması həm də Cənubi Qafqaz və Mərkəzi Asiya regionları arasında strateji əməkdaşlıq üçün ilkin siyasi-hüquqi baza yaratmışdır.

Ermənistan tərəfi münasibətlərin praktiki müstəviyə keçməsi üçün ilk addımı 1993-cü ilin iyun ayında atmış və Qazaxıstanın o vaxtkı paytaxtı Almatıda səfirliyini açmışdır [11]. Bu, Ermənistanın Mərkəzi Asiya regionunda açdığı ilk diplomatik nümayəndəliklərdən biri idi. Sonralar Qazaxıstanın paytaxtının Almatıdan Astanaya (2007–2019-cu illərdə Nursultan adlanmış, 2022-ci ildən yenidən Astana adlandırılmışdır) köçürülməsi ilə əlaqədar səfirlik də fəaliyyətini yeni paytaxta daşımışdır. Ermənistan səfirliyi bu gün də Astana şəhərində, Mariyam Jağorqızı küçəsi 13 ünvanında yerləşir və iki ölkə arasında diplomatik, iqtisadi və humanitar əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynayır [9].

Qazaxıstan isə Ermənistanda səfirliyini bir qədər gec, 2007-ci ildə açmışdır. Qazaxıstanın İrəvandakı səfirliyinin rəsmi açılış mərasimi 12 iyul 2007-ci ildə keçirilmiş və tədbirdə hər iki ölkənin yüksək səviyyəli dövlət nümayəndələri iştirak etmişdir [1]. Ermənistanın o zamankı baş naziri Serj Sarkisyan çıxışında vurğulamışdır ki, səfirliyin açılması iki ölkə arasında siyasi dialoqun institusional səviyyədə inkişafına və qarşılıqlı etimadın dərinləşməsinə xidmət edəcəkdir. Qazaxıstan tərəfi isə bu addımı "dostluq və əməkdaşlıq münasibətlərinin yeni mərhələsi" kimi dəyərləndirmişdir [4].

Bu institutlaşma, yəni diplomatik münasibətlərin rəsmi qurulması və səfirliklərin fəaliyyətə başlaması Ermənistan və Qazaxıstan arasındakı münasibətlərin davamlı olmasına və müntəzəm siyasi dialoqun formalaşmasına zəmin yaratmışdır. Hər iki səfirlik yalnız diplomatik münasibətlərin deyil, həm də iqtisadi, mədəni və humanitar əməkdaşlığın dərinləşməsində aktiv rol oynamışdır. Onların fəaliyyəti nəticəsində hökumətlərarası komissiyaların iclasları keçirilmiş, ticarət, nəqliyyat, kənd təsərrüfatı və təhsil sahələrində birgə layihələr hazırlanmışdır [6]. 1990-cı illərin sonlarından etibarən iki ölkə arasında ticarət, enerji və mədəni əməkdaşlıq sahəsində bir sıra sazişlər imzalanmışdır. Xüsusilə 2 sentyabr 1999-cu ildə Astanada imzalanan "Dostluq və Əməkdaşlıq haqqında Müqavilə" münasibətlərin hüquqi bazasının əsasını təşkil etmişdir [12].

Regional inteqrasiya müstəvisində Ermənistan və Qazaxıstan arasında əməkdaşlıq əsasən Avrasiya İqtisadi İttifaqı (Aİİ) və Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində formalaşmışdır. Hər iki dövlət bu iki qurumun tamhüquqlu üzvləridir və postsovet məkanında iqtisadi, gömrük və nəqliyyat inteqrasiyasının dərinləşdirilməsində mühüm iştirakçılardandır. Qazaxıstan Aİİ-nin təsisçilərindən biri kimi 2015-ci il 1 yanvar tarixində ittifaqın rəsmi fəaliyyətə başlamasında aparıcı rol oynamış, Ermənistan isə həmin ilin 2 yanvar 2015-ci il tarixində Aİİ-yə tamhüquqlu üzv olaraq qoşulmuşdur [10].

Ermənistanın Aİİ-yə üzvlüyü onun iqtisadi sistemini Avrasiya məkanının vahid bazar prinsipləri ilə uyğunlaşdırmaq məqsədi daşıyırdı. Bu çərçivədə Ermənistanın ixracat strukturu Aİİ bazarlarına yönəlib, Qazaxıstan isə Ermənistan üçün həm enerji, həm də kənd təsərrüfatı məhsulları üzrə strateji tərəfdaş ölkələrdən birinə çevrilmişdir. Aİİ çərçivəsində ölkələr arasında gömrük tariflərinin azaldılması, sertifikatlaşdırma standartlarının uyğunlaşdırılması və vahid logistika sisteminin tətbiqi istiqamətində bir sıra qərarlar qəbul edilmişdir [3].

2024-cü il Ermənistan–Qazaxıstan münasibətləri üçün Avrasiya müstəvisində xüsusi əhəmiyyət daşıyan il olmuşdur. Ermənistan həmin il Avrasiya İqtisadi İttifaqının Ali Orqanlarına sədrlik etmiş, bu isə Paşinyan hökumətinə iqtisadi prioritetləri regional səviyyədə formalaşdırmaq imkanı vermişdir. 2 fevral 2024-cü ildə Ermənistanın Baş naziri Nikol Paşinyan Qazaxıstanın Almatı şəhərində keçirilən Avrasiya Hökumətlərarası Şuranın iclasına sədrlik etmişdir. Bu görüşdə ittifaqa üzv ölkələrin baş nazirləri və Avrasiya Komissiyasının sədri iştirak etmiş, əsas müzakirə mövzuları regional logistika, enerji təhlükəsizliyi, kənd təsərrüfatı ixracı və rəqəmsal iqtisadiyyat olmuşdur [7]. Paşinyanın sədrlik etdiyi iclasda Ermənistan və Qazaxıstan arasında ticarət-iqtisadi əlaqələrin şaxələndirilməsi, qarşılıqlı sərmayələrin stimullaşdırılması və "yaşıl iqtisadiyyat" layihələrinin inkişafı üzrə təkliflər irəli sürülmüşdür [13].

Bu, həm də siyasi dialoqun çoxşaxəli formatlarda davam etdiyini nümayiş etdirmişdir. Ermənistan və Qazaxıstan, Aİİ-nin institusional çərçivəsində fərqli geosiyasi mövqelərə malik olsalar da, iqtisadi əməkdaşlıq sahəsində qarşılıqlı maraqların qorunması prinsipi ilə hərəkət edirlər. Xüsusilə Qazaxıstanın Aİİ-də balanslaşdırıcı və praqmatik rolu Ermənistan üçün vacibdir, çünki bu, onun regional bazarlara çıxışını və nəqliyyat əlaqələrinin sabitliyini təmin edir.

Onu da vurğulayaq ki, təhlükəsizlik ölçüsündə dinamikalar fərqli istiqamətdə inkişaf etmişdir. Ermənistan 2024-cü ilin 23 fevral tarixində rəsmi şəkildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı (KTMT) iştirakını "dondurduğunu" bəyan etmişdir [14]. Bu qərar Paşinyan hökumətinin son illərdə KTMT-nin fəaliyyətindən narazılığını ifadə edən bəyanatlarının məntiqi davamı idi. Ermənistan rəhbərliyi hesab edirdi ki, KTMT-nin kollektiv müdafiə mexanizmləri ölkənin təhlükəsizlik maraqlarını lazımi səviyyədə təmin etmir. Baş nazir Paşinyan 2024-cü ilin iyun ayında verdiyi açıqlamada "Ermənistanın KTMT-də qalmaq məqsədəuyğun deyil" ifadəsini işlətmiş və təşkilatdan çıxmaq ehtimalını açıq şəkildə gündəmə gətirmişdir [15].

Qazaxıstan isə KTMT-də qalmaqda davam etmiş, təşkilat çərçivəsində balanslaşdırılmış siyasət yürütməyə üstünlük vermişdir. Astana KTMT-ni regional sabitlik üçün "dialoq platforması" kimi qiymətləndirmiş və Ermənistanın qərarını "suveren seçim" kimi qəbul etdiyini bildirmişdir [15]. Bu, Ermənistan və Qazaxıstanın təhlükəsizlik arxitekturasına fərqli yanaşmalarını göstərmiş, nəticədə ikitərəfli gündəlikdə diqqət daha çox iqtisadi, nəqliyyat və humanitar əməkdaşlıq istiqamətlərinə yönəlmişdir.

2025-ci ildə Ermənistan və Qazaxıstan arasında əməkdaşlığın əsas istiqaməti siyasi və hərbi məsələlərdən çox iqtisadi və nəqliyyat inteqrasiyası üzərində cəmlənmişdir. Ermənistanın 2024-cü

ildə KTMT-də iştirakını dondurması və Qazaxıstanın təşkilatda qalmaq siyasəti fonunda tərəflər arasında fərqli təhlükəsizlik baxışları formalaşsa da, bu, iqtisadi münasibətlərin inkişafını ləngitməmişdir. Əksinə, 2025-ci ildə regional ticarət və logistika əlaqələrinin liberallaşması, Cənubi Qafqazdan Mərkəzi Asiyaya yeni nəqliyyat marşrutlarının açılması fonunda Ermənistan–Qazaxıstan əməkdaşlığı praktik, iqtisadi yönümlü xarakter qazanmışdır [5].

Hökumətlərarası iqtisadi əlaqələr 2025-ci ilin sentyabrında keçirilən 11-ci Ermənistan–Qazaxıstan Hökumətlərarası Komissiyası iclasında yeni "İqtisadi və Logistika Əməkdaşlığı üzrə Yol Xəritəsi (2025–2027)" sənədinin imzalanması ilə gücləndirilmişdir [11]. Sənəd kənd təsərrüfatı, enerji, nəqliyyat-logistika, sənaye məhsulları ticarəti və rəqəmsal iqtisadiyyat sahələrini əhatə edir. Qazaxıstan tərəfi Ermənistan üçün əsasən taxıl, un, metallurgiya və neft məhsulları ixrac edir, Ermənistan isə Qazaxıstana alkoqollu içkilər, tütün məmulatları, maşınqayırma komponentləri və farmasevtik məhsullar göndərir [5].

Rəsmi statistikaya görə, 2025-ci ilin ilk səkkiz ayı ərzində ikitərəfli ticarət dövriyyəsi təxminən 115 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da 2023-cü illə müqayisədə 18% artım deməkdir [8]. Ermənistan hökumətinin məlumatına əsasən, bu artımın əsas səbəbi logistika xərclərinin azalması və gömrük prosedurlarının Aİİ çərçivəsində sadələşdirilməsi olmuşdur.

İqtisadi əməkdaşlıq həm də investisiya və enerji istiqamətində inkişaf edir. Qazaxıstanın "Samruk-Kazyna" Milli İnvestisiya Fondu ilə Ermənistanın "Invest Armenia" Agentliyi arasında 2025-ci ilin mayında imzalanmış Anlaşma Memorandumu birgə sənaye zonalarının yaradılmasını və Qazaxıstan kapitalının Ermənistanın enerji ötürmə infrastrukturu layihələrinə cəlb edilməsini nəzərdə tutur [2].

2025-ci il region üçün yeni tranzit mərhələsinin başlanğıcı kimi dəyərləndirilir. Azərbaycan üzərindən Qazaxıstan yüklərinin Ermənistana tranzitinə qoyulmuş məhdudiyyətlərin aradan qaldırılması regional iqtisadi inteqrasiya baxımından mühüm dönüş nöqtəsi olmuşdur. 30 oktyabr 2025-ci ildə Qazaxıstan Nəqliyyat Nazirliyi rəsmi olaraq bildirmişdir ki, ilk dəfə olaraq Qazax taxılı və un məhsulları Azərbaycan ərazisindən Ermənistan istiqamətinə daşınmışdır [16]. Bu, 30 ildən artıq fasilədən sonra Mərkəzi Asiya–Cənubi Qafqaz tədarük zəncirinin bərpasını simvolizə etmişdir.

Nəqliyyat-logistika sahəsində həmçinin Transkaspiy Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM, "Orta Dəhliz") üzərindən Ermənistanın dolayısı ilə inteqrasiyası da aktuallaşmışdır. Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında fəaliyyət göstərən bu marşrutun genişləndirilməsi 2025-ci ildə Aİİ səviyyəsində də müzakirə olunmuş və Ermənistanın Aİİ üzvü kimi bəzi texniki komissiyalarda iştirakına imkan yaradılmışdır. Beləliklə, Ermənistanın Qazaxıstanla ticarət əlaqələri təkcə Aİİ müstəvisində deyil, həm də regional nəqliyyat diplomatiyası çərçivəsində inkişaf etməyə başlamışdır.

İqtisadi münasibətlərin sabitləşməsi fonunda 2025-ci ildə humanitar və mədəni əməkdaşlıq da aktivləşmişdir. Almatıda "Ermənistan Günləri" adlı mədəniyyət həftəliyi keçirilmiş, İrəvanda isə "Qazaxıstan Kinosu Festivalı" baş tutmuşdur. Bu tədbirlər iki ölkə arasında cəmiyyətlərarası əlaqələrin genişlənməsinə və qarşılıqlı mədəni tanıtıma xidmət etmişdir [2].

Onu da qeyd edək ki, təhsil və elmi əməkdaşlıq sahəsində "Al-Farabi" Qazax Milli Universiteti ilə İrəvandakı Dövlət İqtisad Universiteti arasında "Mərkəzi Asiya–Cənubi Qafqaz Araşdırmaları Mərkəzi" yaradılmışdır. Mərkəz iqtisadi və enerji siyasəti, nəqliyyat strategiyaları və regional təhlükəsizlik məsələləri üzrə birgə tədqiqatlar həyata keçirir.

2025-ci ildə Ermənistan və Qazaxıstan arasında münasibətlər siyasi-diplomatik fərqlərin azaldığı, iqtisadi və logistika yönümlü inteqrasiyanın isə dərinləşdiyi mərhələyə qədəm qoymuşdur. Tərəflər Aİİ və MDB çərçivəsində birgə iqtisadi qərarların qəbulunda iştirak etməklə yanaşı, regional tranzit dəhlizlərinin inkişafında praqmatik əməkdaşlıq nümunəsi göstərmişlər. Azərbaycan üzərindən yük daşımalarının bərpası isə Qazaxıstan–Ermənistan əlaqələrinə "praktik sülh diplomatiyası" xarakteri vermişdir.

Beləliklə, 2025-ci il Ermənistan–Qazaxıstan münasibətlərində iqtisadi realizm və nəqliyyat diplomatiyası mərhələsi kimi qiymətləndirilir. Bu mərhələdə tərəflər siyasi mübahisələrdən uzaq dayanaraq qarşılıqlı fayda və regional inteqrasiya prinsipləri üzərində dayanan əməkdaşlıq modelini inkişaf etdirmişlər.

Nəticə. Ermənistan və Qazaxıstan arasında 1991–2025-ci illəri əhatə edən siyasi-diplomatik münasibətlərin inkişaf dinamikası göstərir ki, iki ölkə arasında əlaqələr təkcə rəsmi səviyyədə deyil,

həm də regional inteqrasiya və iqtisadi əməkdaşlıq müstəvisində dərinləşmişdir. Diplomatik münasibətlərin qurulması, səfirliklərin açılması və 1999-cu ildə imzalanmış "Dostluq və Əməkdaşlıq haqqında Müqavilə" tərəflər arasında qarşılıqlı etimadın və hüquqi bazanın formalaşmasına xidmət etmişdir. Ermənistanın Avrasiya İqtisadi İttifaqına qoşulması və Qazaxıstanın ittifaqdakı aparıcı rolu siyasi dialoqun yeni mərhələsini açmış, 2024-cü ildə Ermənistanın Aİİ-yə sədrlik fəaliyyəti isə münasibətlərin çoxtərəfli diplomatik kontekstdə aktuallaşmasına səbəb olmuşdur.

2025-ci ildən etibarən əlaqələrdə siyasi və təhlükəsizlik fərqlilikləri fonunda iqtisadi və nəqliyyat yönümlü əməkdaşlıq ön plana çıxmışdır. Hökumətlərarası komissiyaların fəaliyyəti, "Yol Xəritəsi (2025–2027)" proqramı və Qazaxıstan yüklərinin Azərbaycan üzərindən Ermənistana tranzitinin bərpası regionda yeni iqtisadi reallıqlar yaratmışdır. Eyni zamanda, mədəni-humanitar və təhsil sahəsində əməkdaşlığın genişlənməsi iki ölkə arasında qarşılıqlı anlayış və etimadı gücləndirmişdir. Beləliklə, Ermənistan–Qazaxıstan münasibətləri 30 ildən artıq bir müddətdə siyasi dialoqdan iqtisadi praqmatizm mərhələsinə keçərək, Avrasiya regionunda sabit və qarşılıqlı faydaya əsaslanan tərəfdaşlıq modelinə çevrilmişdir.

ƏDƏBİYYAT

1. ARKA News Agency. (2007, July 12). Kazakhstan opens embassy in Armenia. https://arka.am/en/news/politics/2773/ [06.11.2025].
2. Armenpress. (2025, June 4). Armenia–Kazakhstan cultural cooperation week opens in Almaty. https://armenpress.am/eng/news/2025 [06.11.2025].
3. Embassy of Armenia in Kazakhstan. (2023). Bilateral Relations: Armenia – Kazakhstan. Ministry of Foreign Affairs of Armenia. https://kazakhstan.mfa.am/en/bilateral-kz [06.11.2025].
4. Embassy of Kazakhstan in Armenia. (2008). Diplomatic Mission Overview. Ministry of Foreign Affairs of Kazakhstan.
5. Eurasian Economic Commission (EEC). (2024). Eurasian Intergovernmental Council meeting held in Almaty on February 2, 2024. https://www.eaeunion.org/en/news/almaty-meeting-2024 [06.11.2025].
6. Eurasian Economic Commission (EEC). (2024). Eurasian Intergovernmental Council Meetings and Armenia–Kazakhstan Cooperation Reports. https://eec.eaeunion.org [06.11.2025].
7. Eurasian Economic Commission (EEC). (2025). Intergovernmental Commission reports on Armenia-Kazakhstan trade and logistics cooperation (2025). https://www.eaeunion.org/en/news [06.11.2025].
8. Kazakhstan Bureau of National Statistics. (2025). Trade turnover between Kazakhstan and Armenia in January–August 2025. https://stat.gov.kz [06.11.2025].
9. Ministry of Foreign Affairs of the Republic of Armenia (MFA Armenia). (2024). Armenia's participation in the Eurasian Intergovernmental Council meeting in Almaty. https://www.mfa.am/en/press-releases/2024/02/02/almaty-meeting [06.11.2025].
10. Ministry of Foreign Affairs of the Republic of Armenia (MFA Armenia). (2024). Diplomatic Relations between Armenia and Kazakhstan. https://www.mfa.am/en/bilateral-relations/kz [06.11.2025].
11. Ministry of Foreign Affairs of the Republic of Armenia (MFA Armenia). (2025). Economic and transport cooperation between Armenia and Kazakhstan, 2025 report. https://www.mfa.am/en/bilateral-relations/kz [06.11.2025].
12. Ministry of Foreign Affairs of the Republic of Kazakhstan (MFA Kazakhstan). (2019). Treaty on Friendship and Cooperation between Kazakhstan and Armenia (1999). https://www.gov.kz/memleket/entities/mfa [06.11.2025].
13. Ministry of Foreign Affairs of the Republic of Kazakhstan (MFA Kazakhstan). (2025). 11th Intergovernmental Commission meeting, İrəvan–Astana partnership roadmap 2025–2027. https://www.gov.kz/memleket/entities/mfa [06.11.2025].
14. Reuters. (2024a, February 23). Armenia freezes participation in Russia-led CSTO military bloc. https://www.reuters.com/world/europe/armenia-suspends-csto-2024-02-23/ [06.11.2025].

15. Reuters. (2024b, June 12). Armenian PM says country may leave CSTO amid tensions with Russia. https://www.reuters.com/world/europe/armenia-may-leave-csto-2024-06-12/ [06.11.2025].
16. Reuters. (2025a, October 30). Kazakhstan resumes grain transit to Armenia via Azerbaijan after 30 years. https://www.reuters.com/world/asia/kazakhstan-armenia-transit-2025-10-30/ [06.11.2025].

КАМАЛА ЭФЕНДИЕВА
Институт востоковедения имени академика Зии Буниятова Национальной академии наук Азербайджана

ДИНАМИКА РАЗВИТИЯ ПОЛИТИКО-ДИПЛОМАТИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АРМЕНИЕЙ И КАЗАХСТАНОМ (1991–2025)

В статье рассматриваются этапы становления и развития политико-дипломатических отношений между Арменией и Казахстаном в 1991–2025 годах. После распада СССР основу отношений между двумя странами составили такие документы, как установление дипломатических отношений, открытие посольств и подписанный в 1999 году «Договор о дружбе и сотрудничестве». В статье также анализируется сотрудничество Армении и Казахстана в рамках Евразийского экономического союза и СНГ, председательство Армении в ЕАЭС в 2024 году и последствия решения о выходе из ОДКБ. Особое внимание уделяется углублению экономических и транспортных связей в 2025 году, созданию межправительственной комиссии, восстановлению транзитных путей и укреплению культурного сотрудничества. Таким образом, в статье показано, что армяно-казахстанские отношения вышли на уровень прагматичного взаимодействия в политическом и экономическом направлениях.

Ключевые слова: Армения, Казахстан, дипломатические отношения, политическое сотрудничество, экономическая интеграция, транспорт и логистика, региональная дипломатия, постсоветское пространство.

KAMALA AFANDIYEVA
Institute of Oriental Studies named after Academician Ziya Bunyadov of the Azerbaijan National Academy of Sciences

DYNAMICS OF DEVELOPMENT OF POLITICAL-DIPLOMATIC RELATIONS BETWEEN ARMENIA AND KAZAKHSTAN (1991–2025)

The article examines the formation and development stages of political and diplomatic relations between Armenia and Kazakhstan in 1991–2025. After the collapse of the USSR, documents such as the establishment of diplomatic relations, the opening of embassies, and the "Treaty on Friendship and Cooperation" signed in 1999 formed the basis of the relations between the two countries. The article also analyzes the cooperation between Armenia and Kazakhstan within the framework of the Eurasian Economic Union and the CIS, Armenia's chairmanship of the EAEU in 2024, and the impact of the decision to withdraw from the CSTO. Special emphasis is placed on the deepening of economic and transport relations in 2025, the establishment of an intergovernmental commission, the restoration of transit routes, and the strengthening of cultural cooperation. Thus, the article shows that Armenian-Kazakhstani relations have risen to the level of pragmatic cooperation in political and economic directions.

Keywords: Armenia, Kazakhstan, diplomatic relations, political cooperation, economic integration, transport and logistics, regional diplomacy, post-Soviet space.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: s.ü.f.d. Könül Şıxıyeva, t.e.d. İsmayıl Məmmədov.